**«Milli ödəniş sistemləri sürətlə inkişaf edir»**

Mərkəzi Bankın ödəniş sistemləri və hesablaşmalar departamentinin direktor müavini Vahid Qurbanlının fikrincə, nağdsız ödənişlər hər bir ölkənin dinamik iqtisadi inkişafının əsas göstəricilərindəndir: «Son illər Azərbaycanda ümumi daxili məhsulun artımı ölkədə nağdsız pul dövriyyəsinin həcminin artmasını təmin etmiş, elektron ticarətin genişlənməsini stimullaşdırmışdır. Ölkə başçısının imzaladığı fərman və sərəncamların icrası nəticəsində bir sıra yeni ödəniş sistemləri yaradılmış, Mərkəzi Bank və Vergilər Nazirliyi bu istiqamətdə mühüm layihələr həyata keçirmişlər. Nağdsız ödənişlərin həcminin artırılması sahəsində mühüm tədbirlərdən biri də bu sahədə müasir infrastrukturun yaradılmasıdır. Deyə bilərik ki, artıq Azərbaycanda nağdsız ödənişlərin həyata keçirilməsi üçün modern sistemlər fəaliyyət göstərir və onların təhlükəsizliyi yüksək səviyyədə qorunur. Mərkəzi Bank və Vergilər Nazirliyinin həyata keçirdikləri birgə tədbirlər nəticəsində vətəndaşların həm POS-terminallar vasitəsilə, həm də internet üzərindən nağdsız ödənişlərə marağı artır. Son illər milli ödəniş sistemləri ilə həyata keçirilən əməliyyatların həcminin artım dinamikası da bu tədbirlərin əməli nəticələr verdiyini söyləməyə ciddi əsaslar verir».